# HƏLAK OLAN UNUDULMAZ XATİRƏSİNƏ...



Rəşid bəy ƏFƏNDİYEV

**VƏTƏN MƏHƏBBƏTİ**

Məhəbbət eyləmək hər yurd üçün bir sirr, hikmətdir,
Vətən viranə də olsa, məsəldir, məhz cənnətdir.
Havası can verir cana, suyu taqət verir cismə,
Vətən qüvvət verir qəlbə, Vətən cürət verir şəxsə.
Vətən zinət verir ruha, Vətən bir başqa hikmətdir.
Vətən bir şamdır, pərvanəsi onun mənəm, sənsən,
O şamın nuru da hər kəsdəki elm ilə sənətdir…
Vücudu harda doğsa, adəm oğlu gəlsə dünyaya,
O yerdən başqa yer cənnət də olsa, diyari-qürbətdir.
Ağac bir yerdə kök saldısa, qalxar, şax budaq atar,
Köçürsən öz yerindən, gör onun halı nə zillətdir.
Qoparsan laləni şaxından, üzsən ya gülü güldən,
Solar, bərbad olar, qalmaz nə tab və nə təravətdir.
Tutub qatilləri divan, vətəndən eyləyir sürgün,
Bu zülmü, bu sitəm bu kəslərə eyni ədalətdir.
Bütün əcdadımız mədfun vətən torpağı altında,
Bizə vacib bu qəbristanı hər dəmdə ziyarətdir.
Nə bədbəxt kimsədir o kəs, vətən mülkünü tərk eylər,
Gedər qürbət yerə, gəlməz, bunun adı səfalətdir.
Diyari- qürbəti seyr eyləmək lazımdır, əlbəttə,
Bəsirət kəsb edib niyyət vətən mülkünə himmətdir.

